**Ayna Hüseynova,**
*Ölkədaxili kitab mübadiləsi*
*şöbəsinin müdiri*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ÖLKƏDAXİLİ KİTAB MÜBADİLƏSİ AZƏRBAYCANIN TƏBLİĞİNƏ XİDMƏT EDİR

***Xülasə:*** *Məqalədə Ölkədaxili kitab mübadiləsi şöbəsinin fondunun formalaşdırılması yolları, əsas iş istiqamətləri haqqında məlumat verilmiş, 2018-2022-ci illər ərzində şöbənin fonduna daxil olmuş və göndərilmiş ədəbiyyatın statistikası göstərilmişdir.*

***Abstract:*** *The article provides information on the ways of forming the fund of the Domestic Book Exchange Department, the main directions of work, and the statistics of the literature received and sent to the fund of the department during 2018-2022.*

***Резюме:*** *В статье приводится информация о путях формирования фонда отдела внутриреспубликанского книгообмена и основных направлениях этой работы. Представлена статистика литературы, поступившей в фонд отдела и отправленной из него, в период 2018-2022 годов.*

***Açar sözlər:*** *Milli Kitabxana, ölkədaxili mübadilə, ehtiyat mübadilə fondu, paylanmış ədəbiyyat.*

***Key words:*** *National Library, domestic exchange, reserve exchange fund, distributed literature.*

***Ключевые слова:*** *Национальная Библиотека, внутриреспубликанский книгообмен, запасной обменный фонд, распространяемая литература.*

Kitabxana konsepsiyası yarandığı vaxtdan bu günə kimi insanların informasiya tələbatının ödənilməsi və informasiyanın gələcək nəsillərə ötürülməsi funksiyasını yerinə yetirir. Hazırda kitabxanalar vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin yaradılmasında, informasiyanın əmtəəyə çevrilməsində aparıcı rol oynayır.

“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının qanununun “Ümumi müddəalar” adlı I fəslinin 4-cü maddəsində kitabxana fəaliyyətinin əsas istiqamətlərinə sənəd-informasiya fondlarının formalaşması, mühafizəsi və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsi, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılması aid edilir və “Kitabxana fondu” adlı III fəslin 14-cü maddəsində qeyd edilir ki, dövlət və qeyri-dövlət nəşriyyatları

tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malik olan kitabxanaların kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliyyatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə bu hüququ təmin edilir.

"Kitabxanaların mübadilə fondları" adlı 16-cı maddəyə görə isə Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil olmayan çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər. Qeyri-profil, dublet, nisbətən az istifadə edilən, habelə mübadilə fondu üçün ayrılan çap əsərləri və kitabxananın digər sənədləri həmin fonda verilir. Müvafiq icra hakimiyyəti orqanları beynəlxalq və ölkədaxili kitab mübadiləsini həyata keçirən kitabxanaların mübadilə fondları üçün əlavə kitab alınmasına vəsait ayırırlar.

Xalqımıza və xarici ölkələrdə yaşayan həmvətənlərimizə 100 ildir ki, xidmət edən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası da fəaliyyətinin bir istiqaməti kimi həm ölkədaxili, həm də beynəlxalq səviyyədə kitab mübadiləsini həyata keçirir.

Kitabxanalararası mübadilə fondu bölməsi 1961-ci ildə M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının Komplekləşdirmə şöbəsinin nəzdində fəaliyyətə başlamışdır. Beləliklə, 1961-ci ildən sonra Dövlət Kitabxanasının mübadilə fondu bütövlükdə respublikanın mübadilə fondu kimi fəaliyyət göstərməyə başlamışdır. Bu zaman bölmənin fonduna 5200 nüsxə, M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasından 1585 nüsxə ədəbiyyat qəbul edilmişdir. Bundan əlavə, həmin il Daxili İşlər Nazirliyinin kitabxanasından 555 müxtəlif məzmunlu köhnə nəşrlər alınmışdır. Qəbul olunmuş ədəbiyyatların içərisindən 2457 kitab və 3450 jurnal işlənilib bölmənin fonduna daxil edilmişdir. Bununla əlaqədar olaraq bölməyə qəbul olunan ədəbiyyat üzrə kataloqun tərtibinin əsası qoyulmuşdur.

Bölmə 1978-ci ilədək kitabxananın Komplektləşdirmə şöbəsinin tərkibində fəaliyyət göstərmişdir. Lakin şöbənin fərqli iş xüsusiyyəti onun ayrıca şöbə kimi fəaliyyət göstərməsi ehtiyacını yaratmışdır. Şöbənin yaradılmasında məqsəd respublika kitabxanalarının fondlarını ədəbiyyatla təmin etmək olmuşdur. Məhz bunun nəticəsində kitabxananın Elmi Şurası 1978-ci ildən onun müstəqil şöbə kimi fəaliyyətini lazım bilmişdir.

Şöbənin müstəqil fəaliyyəti onun iş sahələrinin genişlənməsinə səbəb olmuşdur. Şöbənin fəaliyyət istiqamətlərindən birini də respublikadaxili ədəbiyyat mübadiləsi təşkil edir. Bu məqsədlə bütün mərkəzi kitabxanalar ilə mütəmadi əlaqə yaradılır, onların kitab fondlarının zənginləşdirilməsinə və yeni

kitabxanaların yaradılmasına köməklik göstərilir. Şöbəyə daxil olan ədəbiyyatların sayı ildən-ilə artır.

Şöbə kitabxananın büdcəsi hesabına alınmış, Mədəniyyət Nazirliyinin xətti ilə, müəlliflər, tərəfindən hədiyyə edilmiş ədəbiyyatı rayon və şəhər kitabxanaları, musiqi məktəbləri, muzeylər, ayrı-ayrı müəssisə və təşkilatlar arasında bölüb paylayır. Paylanılmış hər kitab və jurnala fərdi kartoteka yaradılır.

Nazirliyin vəsaiti hesabına tariximiz, mədəniyyətimiz, musiqimiz, incəsənətimiz üçün mühüm kəsb edən kitablar sifarişlə çap olunaraq Milli Kitabxananın Ölkədaxili kitab mübadiləsi şöbəsi vasitəsilə aidiyyatı yerlərə göndərilir.

Şöbəyə Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyindən və müxtəlif təşkilatlardan məktublar daxil olur. Şöbənin fondundan Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin xətti ilə, Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə, Heydər Əliyev mərkəzlərinə, dünya milli kitabxanalarına, universitet kitabxanalarına, yeni yaradılan kitabxanalara və b. təşkilatlara, ölkədaxili və beynəlxalq kitab sərgilərinə kitablar göndərilir.

*Cədvəl №1.* Ölkədaxili kitab mübadiləsi şöbəsindən 2018-2022-ci illər üzrə mübadilə yolu ilə xarici dövlətlərə göndərilən kitabların statistikası:

| **İllər** | **Göndərilib** |
|---|---|
| 2018 | 2347 nüsxə |
| 2019 | 1923 nüsxə |
| 2020 | 976 nüsxə |
| 2021 | 1342 nüsxə |
| 2022 | 3382 nüsxə |

Cədvəldən göründüyü kimi, 2020-ci ildə Ölkədaxili kitab mübadiləsi şöbəsindən kitab verilişinin sayı aşağı səviyyədədir. Bunundа əsas səbəbi ölkədə həmin il Covid-19 pandemiyasının olmasıdır.

*Cədvəl №2.* Mübadilə yolu ilə 2018-2022-ci illər üzrə şöbəyə müxtəlif istiqamətlərdən daxil olan və göndərilən kitabların statistikası:

| **İllər** | **Daxil olub** | **Paylanılıb** |
|---|---|---|
| 2018 | 52538 nüsxə | 23433 nüsxə |
| 2019 | 17848 nüsxə | 19752 nüsxə |
| 2020 | 16182 nüsxə | 12298 nüsxə |
| 2021 | 14900 nüsxə | 13572 nüsxə |
| 2022 | 20900 nüsxə | 20658 nüsxə |

*Diaqram №1*. Daxil olmuş ədəbiyyatın mənbələr üzrə dinamikası:



*Diaqram №2.* Paylanılmış ədəbiyyatın mənbələr üzrə dinamikası:




Ulu Öndərin işinin və ideyalarının layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafında yeni mərhələnin təməlini qoydu. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 12 yanvar 2004-cü il tarixində "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncama əsasən, Milli Kitabxananın Ölkədaxili kitab mübadiləsi şöbəsinə AMEA-nın İşlər İdarəsindən hər kitabdan 100 nüsxə olmaqla latın qrafikası ilə çap olunmuş kitablar daxil olmuşdur. Bu da Milli Kitabxanaya gələn oxucular üçün çox

vacibdir. Bu kitablar ölkədaxili və beynəlxalq kitab sərgilərinə göndərilir.

*Cədvəl №3.* Prezidentin sərəncamı ilə çap olunmuş kitabların paylanma statistikası:

| **İllər** | **Paylanılıb** |
|---|---|
| 2018 | 1203 nüsxə |
| 2019 | 600 nüsxə |
| 2020 | 927 nüsxə |
| 2021 | 257 nüsxə |
| 2022 | 961 nüsxə |

Ali Baş Komandanın güclü iradəsi ilə Azərbaycan xalqı tariximizə "Zəfər salnaməsi" kimi yazılan 44 günlük müharibənin qələbəsi yaşadı. Vətən müharibəsi ilə qazanılan tarixi zəfərin ölkəyə verdiyi əhəmiyyəti Azərbaycan xalqı heç vaxt unutmayacaq. Bu qələbə təkcə işğal altında olan torpaqlarımızın azad edilməsi deyil, bu qələbə millətin dirçəlişidir. 44 günlük müharibə nəticəsində işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərmiş kitabxanaların kitab fondlarının bərpası ilə əlaqədar Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi olan kitabtoplama kompaniyası keçirilir.

Prezident İlham Əliyevin 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə bağlı sərəncamına müvafiq olaraq Milli Kitabxana da "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya" və "Xan Şuşinski. Biblioqrafiya" kitablarının təqdimatını keçirmiş, sərgilərə şöbənin fondundan Şuşaya aid müxtəlif kitablar verilmişdir. Buna misal olaraq, Şuşada keçirilən "Məclisi-üns" ədəbi məclisində təqdimatı olmuş "Xurşidbanu Natəvan (Xurşidbanu Natəvan Mehdiqulu xan qızı Cavanşir): biblioqrafiya" kitabını göstərmək olar.

Bundan başqa, şöbənin ən başlıca işlərindən biri də hərbi hissələri kitabla təmin etməkdir. Qeyd etmək istədim ki, bu günə qədər hərbi hissələrə 500 nüsxə kitab və jurnal göndərilmişdir.

## ƏDƏBİYYAT


**1.** Azərbaycan Milli Kitabxanasının 2018-2022-ci il üçün hesabatları.

**2.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.- 1999, 14 mart.- S.3.

**3.** Koçak, A. Azərbaycan Milli Kitabxanasının kitab mübadiləsi sahəsindəki fəaliyyəti: 2010-2021 /Aygün Koçak //Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri, 2022.- Bur. 11.- S.70-87.

**4.** Xələfov, A. Kitabxana işçisinin məlumat kitabı /A.A.Xələfov, R.Ə.Kazımov, E.M.Bədəlov; rəy ver. F.Əliyev.- B.: Azərnəşr, 1986.- 286 s.